## Reccio Emiliya təlimi haqqında

Bu unikal yanaşma İkinci Dünya müharibəsindən sonra İtaliyanın Reccio Emiliya şəhərində və onun ətraf kəndlərində hazırlanmışdır. Məqsəd kiçikyaşlı uşaqlara təhsil vermək idi və bu o qədər uğurlu alındı ki, bu təlim bütün dünyada Reccio Emiliya pedaqogikası kimi tanındı. Bəs təlimin uğurunun sirri nədədir və o niyə bu qədər effektlidir?

Mütəxəssislərə görə, Reccio Emiliya təliminin uğurlu olmasının sirri onun fəlsəfəsindədir. Reccio Emiliya fəlsəfəsinə əsasən:

- Öyrənmə prosesində uşaqların keçirdikləri hisslər böyük rol oynayır və bu səbəbdən təlim fəaliyyəti onları maraqlandıran mövzularda və öyrənmək istədikləri tərzdə olmalıdır.
- Öyrənmə zamanı uşaqların öz emosiyalarına qapılması onların təlimi mənimsəməsinə kömək edir.
- Uşaqların başqaları ilə ünsiyyətinə və ətrafdakı əşyalarla təmas qurmasına şərait yaradılmalıdır.
- Uşaqlar özlərini ifadə etməyə təşviq edilməlidir və bunun üçün müxtəlif vasitə və imkanlar yaradılmalıdır.

Reccio Emiliya təliminin əsas xüsusiyyətlərindən biri əməkdaşlıqdır. Valideynlər mütəmadi olaraq təlim prosesinə dəvət olunurlar. Pedaqoji kollektiv məşğələlərdə fəal iştirak etmələri üçün onlarda həvəs yaradır. Bir çox valideynlər könüllü olaraq qrup otağında təlim prosesi ilə yaxından tanış olur, hətta məşğələ iştirakçısına çevrilirlər. Nəticədə valideynlər təlim zamanı ortaya çıxan bir sıra üsullardan evdə də uşaqlarla ünsiyyətdə istifadə edirlər.

Reccio Emiliya fəlsəfəsinin prinsiplərinə əsasən uşaqların özlərini evdəki kimi hiss etmələri üçün rahat təhsil mühiti qurulur. Bu baxımdan qrup otaqlarının da estetik baxımdan cəlbediciliyinə xüsusi diqqət yetirilir.

Öyrənməyə gəldikdə isə gil, boya, dramatik (rollu-süjetli) oyun və s. daxil olmaqla müxtəlif material və vasitələrin istifadəsinə ehtiyac yaranan təlim prosesi qurulur. Burada fərdi və komanda layihələrinə xüsusi yer verilir. Heç kim uşaqları tələsdirmir, əksər hallarda uşaqlar layihələrini həftələrlə, bəzən isə aylarla davam etdirə bilirlər. Bu layihələrin uzun müddət davam etməsi uşaqlara öyrəndiklərinə müxtəlif aspektlərdən yanaşmaq imkanı yaradır.

Digər vacib xüsusiyyətlərdən biri isə ***birgə qurma*** üsulundan geniş şəkildə istifadə olunmasıdır. O, uşağın digər uşaqlarla işləyərkən öyrənmə qabiliyyətini artırmaq üçün tətbiq edilir. ***Birgə qurma*** üsulu tərbiyəçi-müəllim üçün də

səmərəlidir, bu zaman uşaqlarla müəllim arasında fəal dialoq və əməkdaşlıq üçün imkan yaranır.

İlk baxışdan elə görünə bilər ki, təlim prosesi öz-özünə, məqsədsiz və yalnız əyləncə üçündür. Ancaq əsla belə deyil. Uşaqların inkişaf etməsi Reccio Emiliya təliminin başlıca motividir.

Bəs tərbiyəçi-müəlllim necə anlayır ki, onun qurduğu təlim prosesi uşaqları inkişaf etdirir? Uşaqların təlimdə öyrəndiklərini nümayiş etdirməyin bir yolu ***sənədləşdirmədir***. Bu, uşağın yaratdığı layihə və ya bütün tədris ili ərzində etdiyi bir sıra işlər ola bilər.

Kurikulumun planlaşdırılmasını və uşaqların inkişaf dinamikasını izləmək üçün istifadə olunan sənədləşdirmənin bir növü *"Flowchart" ("Flouçart" – blok-sxem) sistemidir*. O, uşağın təlimdəki irəliləyişini addım-addım qeyd edir. Bu sistemdən uşağın keçmiş və hazırki vəziyyətini dəyərləndirmək və gələcəkdəki inkişaf tempi haqqında proqnoz vermək üçün istifadə olunur.

*Portfoliolar* da sənədləşdirmə işində tərbiyəçi-müəllimlərə böyük köməklik göstərir.

Yekun olaraq, bunu qeyd etmək çox vacibdir. Reccio Emiliya təliminin əsas məqsədi uşaqların uşaqlığını dolu-dolu yaşayaraq öyrənmələri üçün şərait yaratmaqdır. Reccio Emiliya fəlsəfəsinə görə bu, asan deyil, lakin uşaqlar üçün ən səmərəli və təbii inkişaf yoludur.

**İstifadə olunan mənbələr:**


1. The Reggio Emilia Preschool Philosophy (verywellfamily.com)
2. Reggio Emilia Method - The Emilia Schools
3. Reggio Children - Reggio Emilia Approach